**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**QƏRAR № 18**

**Bakı şəhəri, 28 noyabr 2016-cı il**

# Təbii qazın ölkədaxili tariflərinin tənzimlənməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na uyğun olaraq və SOCAR-ın müraciətini nəzərə alaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **QƏRARA ALIR**:

1. Təbii qazın ölkədaxili tarifləri təsdiq edilsin (əlavə olunur).

2. Nəzərə alınsın ki:

2.1. bu qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş əlavənin cədvəl bölməsinin 3-cü sətri ilə müəyyən edilmiş tarifə mədən vergisi daxildir;

2.2. həmin əlavənin cədvəl bölməsinin 3-cü, 4-cü və 5-ci sətirləri ilə müəyyən edilmiş tariflərə təbii qazın nəqli ilə bağlı bütün xərclər daxildir;

2.3. həmin əlavənin cədvəl bölməsinin 4.1.1-ci və 4.1.2-ci sətirlərində illik istehlak həcmi dedikdə təbii qazın bir təqvim ili ərzindəki istehlak həcmi nəzərdə tutulur və həmin tariflər 2017-ci il 1 yanvar tarixindən qüvvəyə minir;

2.4. bu qərarın məqsədləri üçün əhali istehlakçı qrupu dedikdə təbii qazı şəxsi tələbatını ödəmək məqsədi ilə istifadə edən məişət abonentləri başa düşülür.

3. 2016-cı il 1 dekabr tarixinədək ölkə daxilində təbii qazın dəyəri bu qərardan əvvəl qüvvədə olmuş tariflərə uyğun olaraq hesablansın.

4. SOCAR-a tapşırılsın ki, təbii qaz üzrə itkilərin azaldılması istiqamətində müvafiq tədbirlər görsün və 2017-2019-cu illər üzrə itkilərin azaldılması ilə bağlı qrafiki Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasına təqdim etsin.

5. "Təbii qazın ölkədaxili tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2013-cü il 2 dekabr tarixli 13 nömrəli Qərarı (1-ci hissənin cədvəl bölməsinin 4-cü sətri istisna olmaqla) bu qərar qüvvəyə mindiyi tarixdən, həmin qərarın 1-ci hissəsinin cədvəl bölməsinin 4-cü sətri isə 2017-ci il 1 yanvar tarixindən ləğv edilsin.

6. Bu qərar 2016-cı il 1 dekabr tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikası**

**Tarif (qiymət) Şurasının sədri** **Şahin Mustafayev**

https://www.tjnfctag.com/rfid-oem/

*Azərbaycan Respublikası*
*Tarif (qiymət) Şurasının*
*2016-cı il 28 noyabr tarixli*
*18 nömrəli qərarı ilə*
*təsdiq edilmişdir*

**Təbii qazın ölkədaxili tarifləri**

| № | Xidmətlərin adı | **Tariflər** (ƏDV ilə, manat/min $m^3$) |
|---|---|---|
| **I** | **II** | **III** |
| 1. | Təbii qazın emalı | 5,5 |
| 2. | Təbii qazın nəqli (hər 100 km məsafə üçün) | 2,0 |
| 3. | Təbii qazın qaz paylayıcılarına topdan satışı | 75,0 |
| 4. | Təbii qazın pərakəndə satışı | |
| 4.1. | Əhali | |
| 4.1.1. | illik istehlak həcminin 1500 $m^3$-dək (1500 $m^3$ daxil) olan hissəsi üçün | 100,0 |
| 4.1.3. | illik istehlak həcminin 1500 $m^3$-dən çox olan hissəsi üçün | 200,0 |
| 4.2. | Qeyri-əhali | 200,0 |
| 5. | Magistral qaz kəmərlərinə birbaşa qoşulmaqla istehsal məqsədləri üçün təbii qaz istehlak edən elektrik enerjisi istehsalı müəssisələrinə təbii qazın satışı (aylıq istehlakı 10 milyon $m^3$-dən az olmamaq şərti ilə) | 120,0 |

https://www.tjnfctag.com/rfid-oem/